*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 6, Sayı: 6, s. 44–50
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* June 2026, Volume: 6, Issue: 6, pp. 44–50
DOI: https://doi.org/10.36719/2789-6919/60/44-50

# Azərbaycan və Fransa respublikalarının mədəni əlaqələri: tarixi baxış

**Səlimə Quliyeva**

***Xülasə.*** *Məqalədə Azərbaycan ilə Fransa arasında mədəni, elmi və humanitar əlaqələrin tarixi inkişaf mərhələləri araşdırılmışdır. Tədqiqat zamanı Azərbaycanın Şərq və Qərb arasında mədəni körpü rolunun bu münasibətlərin formalaşmasına təsiri təhlil edilmişdir. XIX əsrdə Fransa maarifçilik ideyalarının Azərbaycan ictimai-fəlsəfi fikrinə təsiri, Mirzə Fətəli Axundov, İsmayıl bəy Qutqaşınlı, Əhməd bəy Ağaoğlu və Məhəmməd ağa Şahtaxtılı kimi ziyalıların Fransa ilə əlaqələri geniş şəkildə işıqlandırılmışdır. Eyni zamanda, Aleksandr Dümanın Qafqaza səfəri və onun Azərbaycan haqqında qeydlərinin Avropada ölkə haqqında təsəvvürlərin formalaşmasında rolu göstərilmişdir.*

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fransa ilə elm və təhsil sahəsində əməkdaşlıq, azərbaycanlı tələbələrin Fransaya göndərilməsi, Parisdə Azərbaycan mühacirət mühitinin fəaliyyəti və Azərbaycan mədəniyyətinin Avropada təbliği məsələləri də tədqiq olunmuşdur. Bundan əlavə, sovet dövründə Azərbaycan–Fransa mədəni əlaqələrinin xüsusiyyətləri, bu münasibətlərin ideoloji çərçivədə inkişafı və humanitar əməkdaşlığın istiqamətləri təhlil edilmişdir. Tədqiqat əsnasında müəyyən edilmişdir ki, Azərbaycan – Fransa mədəni əlaqələri uzun tarixi inkişaf yolu keçərək müasir dövrdə strateji humanitar əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Araşdırma zamanı müasir Azərbaycan tarixi əsərlərindən və mətbuat materiallarından istifadə olunmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan, Fransa, mədəni əlaqələr, mədəni diplomatiya, maarifçilik, humanitar əməkdaşlıq, Azərbaycan Xalq Cümhuriyyəti, Fransa maarifçiliyi*

---

Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: quliyeva_salima@mail.ru
Daxil oldu: 13 Mart 2026; Qəbul edildi: 14 İyun 2026; Onlayn dərc edildi: 30 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Cultural Relations between the Republics of Azerbaijan and France: A Historical Perspective

**Salima Guliyeva**

***Abstract.*** *The article examines the historical development stages of cultural, scientific, and humanitarian relations between Azerbaijan and France. The study analyzes the role of Azerbaijan as a cultural bridge between East and West in the formation of these relations. Particular attention is devoted to the influence of French Enlightenment ideas on Azerbaijani socio-philosophical thought in the nineteenth century, as well as to the activities of intellectuals such as Mirza Fatali Akhundov, Ismayil bey Gutgashinli, Ahmad bey Agaoglu, and Mahammad agha Shahtakhtli in the context of Azerbaijani-French relations. The article also highlights Alexandre Dumas's journey to the Caucasus and the significance of his observations about Azerbaijan in shaping European perceptions of the country.*

*The research further explores scientific and educational cooperation between Azerbaijan and France during the period of the Azerbaijan Democratic Republic, including the education of Azerbaijani students in France, the activities of Azerbaijani émigré intellectuals in Paris, and the promotion of Azerbaijani culture in Europe. In addition, the article analyzes the specific characteristics of Azerbaijani-French cultural relations during the Soviet period, the ideological framework of these relations, and the main directions of humanitarian cooperation. The study concludes that Azerbaijani-French cultural relations have undergone a long historical evolution and have reached the level of strategic humanitarian partnership in the modern era.*

***Keywords:*** *Azerbaijan, France, cultural relations, cultural diplomacy, Enlightenment, humanitarian cooperation, Azerbaijan Democratic Republic, French Enlightenment*

---

Baku State University, PhD in History, Baku, Azerbaijan
E-mail: guliyeva_salima@mail.ru
Received: 13 March 2026; Accepted: 14 June 2026; Published online: 30 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Dünya ölkələri ilə müxtəlif sahələr üzrə qurulan əməkdaşlıq münasibətləri, qarşılıqlı siyasi və mədəni əlaqələrin inkişafı, eləcə də beynəlxalq səviyyədə formalaşdırılan dostluq və tərəfdaşlıq mühiti Azərbaycan Respublikasının demokratik dəyərlərə, multikulturalizm prinsiplərinə və beynəlxalq əməkdaşlığa verdiyi önəmin göstəricisidir. Müstəqillik illərində həyata keçirilən xarici siyasət kursunda mədəni diplomatiya xüsusi yer tutmuş, Azərbaycan öz milli-mədəni irsinin beynəlxalq miqyasda tanıdılması istiqamətində ardıcıl fəaliyyət göstərmişdir. Bu baxımdan Fransa Respublikası ilə münasibətlər Azərbaycan xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi diqqəti cəlb edir.

Azərbaycan ilə Fransa arasında münasibətlər yalnız siyasi və iqtisadi sahələri deyil, həm də elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlıq istiqamətlərini əhatə etmişdir. Xüsusilə XXI əsrin əvvəllərindən etibarən iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsi məqsədilə müxtəlif layihələr, sərgilər, elmi konfranslar, tələbə mübadilə proqramları və humanitar təşəbbüslər həyata keçirilmişdir. Azərbaycan Respublikasının mədəniyyət diplomatiyası qısa müddət ərzində beynəlxalq miqyasda mühüm uğurlar əldə etmiş, ölkənin zəngin tarixi-mədəni irsinin dünya ictimaiyyətinə təqdim olunmasında mühüm rol oynamışdır (Hacıyev, 2017, s. 156).

Tədqiq edilən dövrdə Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında elm və təhsil sahəsində əməkdaşlıq universitetlərarası əlaqələrin yaradılması, birgə elmi layihələrin həyata keçirilməsi və akademik mübadilə proqramlarının təşkili vasitəsilə inkişaf etmişdir. Bununla yanaşı, mədəniyyət sahəsində keçirilən qarşılıqlı tədbirlər, incəsənət festivalları, muzey sərgiləri və mədəniyyət günləri xalqlar arasında qarşılıqlı anlaşma və yaxınlaşmanın möhkəmləndirilməsinə xidmət etmişdir. Humanitar əməkdaşlıq isə tolerantlıq, multikulturalizm və sivilizasiyalararası dialoq prinsiplərinin təşviqi baxımından mühüm əhəmiyyət daşımışdır.

## Metodlar

Məlum olduğu kimi, beynəlxalq mədəni əməkdaşlığın qurulması və inkişaf etdirilməsi dövlətlərin xarici siyasət strategiyasının mühüm tərkib hissələrindən biridir. Müasir beynəlxalq münasibətlər sistemində “yumşaq güc” (soft power) anlayışı dövlətlərin siyasi nüfuzunun artırılması, milli maraqlarının müdafiəsi və beynəlxalq imicinin formalaşdırılması baxımından mühüm vasitə hesab olunur. Bu mənada mədəniyyət diplomatiyası xalqlar arasında qarşılıqlı etimadın yaradılması,

beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və sülh mühitinin möhkəmləndirilməsi üçün effektiv mexanizmlərdən biri kimi çıxış edir. Azərbaycan Respublikası da öz xarici siyasətində mədəni diplomatiyadan geniş istifadə edərək beynəlxalq aləmdə tolerant, multikultural və sivil dəyərlərə sadiq dövlət imicini formalaşdırmağa nail olmuşdur.

Dünyada sülhün və təhlükəsizliyin təmin olunması baxımından mədəni əlaqələrin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki mədəniyyətlərarası dialoq müxtəlif xalqlar və dövlətlər arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, siyasi gərginliklərin azaldılmasına və humanitar əməkdaşlığın genişlənməsinə şərait yaradır. Azərbaycan ilə Fransa arasında qurulan mədəni-humanitar münasibətlər də məhz bu baxımdan mühüm əhəmiyyət daşıyaraq iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etmişdir.

**Nəticələr**

*Azərbaycan–Fransa mədəni əlaqələrinin tarixi əsasları.* Azərbaycan yalnız coğrafi baxımdan Şərq və Qərbin qovuşduğu strateji məkanda yerləşən dövlət deyil, eyni zamanda, müxtəlif mədəniyyətlərin, dinlərin və sivilizasiyaların qarşılıqlı təsir və inteqrasiya etdiyi mühüm mədəni-sivilizasion mərkəz kimi çıxış edir. Tarix boyu müxtəlif etnosların və dini icmaların birgə yaşadığı Azərbaycan ərazisində tolerantlıq, multikulturalizm və qarşılıqlı hörmət prinsipləri formalaşmışdır. Bu amillər Azərbaycan mədəniyyətinin zəngin və rəngarəng xarakter almasına səbəb olmuş, ölkənin dünya mədəni irsi sistemində özünəməxsus yer tutmasını təmin etmişdir. Məhz buna görə də Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə qəbul olunması, Şərq və Qərb ölkələrinin Azərbaycan xalqının mədəni irsinə, incəsənətinə və folklor nümunələrinə maraq göstərməsi təbii və qanunauyğun hal hesab olunur (Axundova, 2016, s. 57–62).

Azərbaycan ilə Fransa arasında mədəni əlaqələrin formalaşması və inkişafı tarixi köklərə əsaslanmış, müxtəlif dövrlərdə siyasi, iqtisadi və mədəni münasibətlərin təsiri altında inkişaf etmişdir. Bu baxımdan, Azərbaycan və Fransa xalqları arasında mədəni əlaqələrin tarixini nəzərdən keçirmək xüsusi əhəmiyyət kəsb edir. İki xalq arasında qarşılıqlı maraq və mədəni təmasların əsasları hələ orta əsrlərdə formalaşmağa başlamışdır. Şərqə olan marağın gücləndiyi dövrlərdə Fransa cəmiyyətində Azərbaycan həm iqtisadi potensialına, həm də zəngin mədəniyyətinə görə diqqət mərkəzində olmuşdur.

*XIX əsrdə Azərbaycan–Fransa ədəbi və elmi əlaqələri.* XIX əsrdə Avropada, xüsusilə Fransada formalaşan maarifçilik ideyaları Azərbaycan ictimai-fəlsəfi fikrinə və ədəbi mühitinə ciddi təsir göstərmişdir. Azərbaycan maarifçiləri fransız maarifçilərinin azadfikirlilik, dünyəvilik, humanizm və sosial tərəqqi ideyalarından faydalanaraq milli maarifçilik hərəkatının inkişafına mühüm töhfələr vermişlər. Bu dövrdə Fransa mədəniyyətinə və ədəbiyyatına olan maraq Azərbaycan ziyalıları arasında geniş yayılmış, fransız dili və ədəbiyyatı intellektual çevrələrdə nüfuz qazanmışdır. Eyni zamanda, Fransa ictimaiyyətində də Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı maraq artmağa başlamışdır.

Bu qarşılıqlı marağın mühüm nümunələrindən biri fransız müəllifi Nader Xanıkovun 1864–1865-ci illərdə "Asiya" jurnalında Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi Əfzələddin Xaqani haqqında dərc etdirdiyi məqalə olmuşdur. Həmin məqalə Azərbaycan ədəbiyyatının Avropa elmi və ədəbi dairələrində tanınmasına xidmət etmişdir. Bundan başqa, Mirzə Fətəli Axundovun əsərlərinin XIX əsrin sonu – XX əsrin əvvəllərində fransız şərqşünasları tərəfindən fransız dilinə tərcümə olunması Fransa cəmiyyətində Azərbaycan ədəbiyyatına və mədəniyyətinə olan marağın artmasının göstəricisi idi. Eyni zamanda, M.F.Axundov və A.A.Bakıxanov kimi görkəmli Azərbaycan ziyalılarının əsərlərinin Fransa mətbuatında nəşr olunması iki xalq arasında intellektual-mədəni əlaqələrin inkişaf etdiyini sübut edir (Georgeon, 1989, s. 77). Azərbaycan-Fransa mədəni

əlaqələrinin tarixi baxımından Mirzə Fətəli Axundovun yaradıcılığı xüsusi diqqətə layiqdir. Onun "Müsyo Jordan və dərviş Məstəli şah" əsərində Fransa ilə bağlı obraz və motivlərin yer alması, Avropa düşüncə tərzinə münasibətin bədii formada əks etdirilməsi həmin dövrdə Azərbaycan-Fransa əlaqələrinin müəyyən inkişaf mərhələsinə çatdığını göstərir. Əsərdə Şərq və Qərb dünyagörüşlərinin müqayisəsi, maarifçilik ideyalarının təbliği və elmi biliklərin üstünlüyünün vurğulanması Fransa mədəniyyətinin Azərbaycan ictimai fikrinə təsirinin bariz nümunəsi hesab edilə bilər.

Fransa maarifçilik ideyalarının təsiri altında formalaşan XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan İsmayıl bəy Qutqaşınlı da Azərbaycan-Fransa ədəbi əlaqələrinin inkişafında mühüm rol oynamışdır. O, məşhur "Rəşid bəy və Səadət xanım" povestini fransız dilində qələmə almış və fransız dilində bədii əsər yazan ilk azərbaycanlı müəllif kimi tarixə düşmüşdür (Ehmir-Il'yasova, 2003, s. 40). Bu fakt bir tərəfdən Azərbaycan ziyalılarının Avropa mədəniyyətinə inteqrasiyasını, digər tərəfdən isə fransız dilinin və ədəbiyyatının Azərbaycan ziyalı mühitində nüfuzunu göstərən mühüm göstərici hesab olunur. Azərbaycan ilə Fransa arasında mədəni əlaqələrin tarixi kökləri uzun əsrləri əhatə etmiş, xüsusilə XIX əsrdə maarifçilik ideyalarının təsiri ilə daha intensiv xarakter almışdır. Bu əlaqələr sonrakı dövrlərdə də inkişaf edərək müasir mərhələdə elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlıq sahələrində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Fransa ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Aleksandr Düma XIX əsrdə Qafqaza etdiyi səfərlərlə region haqqında Avropa ictimaiyyətində təsəvvür formalaşdıran mühüm şəxsiyyətlərdən biri olmuşdur. O, 1858–1859-cu illərdə Qafqaza səfər edərək Azərbaycanın Nuxa, Quba, Bakı və digər yaşayış məntəqələrində olmuş, burada xalqın məişəti, adət-ənənələri, sosial həyatı və mədəniyyəti ilə yaxından tanış olmuşdur (Alieva, 2011). Aleksandr Dümanın bu səfəri yalnız şəxsi müşahidə xarakteri daşımamış, eyni zamanda, Avropa oxucularının Qafqaz və Azərbaycan haqqında məlumatlandırılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Yazıçı səfər zamanı əldə etdiyi təəssüratları 1859-cu ildə Parisdə nəşr etdirdiyi Qafqaz səfəri adlı əsərində ətraflı şəkildə təsvir etmişdir. Sonralar bu əsərin 1861-ci ildə Tiflisdə, 1962-ci ildə isə Nyu-Yorkda yenidən nəşr olunması onun beynəlxalq elmi və ədəbi ictimaiyyət üçün əhəmiyyətini göstərir. Əsərdə müəllif Azərbaycan xalqının qonaqpərvərliyini, milli xüsusiyyətlərini, dilini, məişətini və mədəniyyətini rəğbət hissi ilə təqdim etmişdir. Xüsusilə xalqın milli qüruru və məğrurluğu haqqında verdiyi təsvirlər Fransa oxucularında Azərbaycan haqqında müsbət ictimai rəyin formalaşmasına təsir göstərmişdir. Aleksandr Dümanın qeydləri XIX əsr Azərbaycan cəmiyyətinin sosial-mədəni mənzərəsini öyrənmək baxımından da mühüm tarixi mənbə hesab olunur.

Azərbaycan-Fransa mədəni və intellektual əlaqələrinin inkişafında görkəmli Azərbaycan ziyalısı Əhməd bəy Ağaoğlu xüsusi yer tutur. O, Fransa mətbuatında çıxış edən ilk azərbaycanlı müəllif kimi tarixə düşmüşdür (Georgeon, 1989, s. 77). Əhməd bəy Ağaoğlunun Fransa ictimai-siyasi və intellektual mühiti ilə sıx əlaqələri onun dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. O, Avropa maarifçilik ideyalarını və demokratik dəyərləri Azərbaycan ictimai fikrinə gətirən əsas ziyalılardan biri olmuşdur. Fransız tədqiqatçısı François Georgeon özünün "Maarifçilik və inqilab fədaisi türk ziyalısı Əhməd Ağaoğlu" adlı əsərində Əhməd bəy Ağaoğlunun həyatının Fransa dövrünü geniş şəkildə təhlil etmişdir (Əliyeva, 2020, s. 186–197). Tədqiqatda Ağaoğlunun Fransa maarifçiliyindən və fransız inqilabının ideyalarından təsirləndiyi, xüsusilə azadlıq, bərabərlik və dünyəvilik prinsiplərinə böyük önəm verdiyi vurğulanır. Bu təsirlər sonradan onun siyasi və publisistik fəaliyyətində də öz əksini tapmışdır.

XIX əsrdə Azərbaycan-Fransa maarifçilik və elmi əlaqələrinin inkişafında görkəmli Azərbaycan mütəfəkkiri Məhəmməd ağa Şahtaxtılı da mühüm rol oynamışdır. O, Fransanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Sorbonna Universiteti nəzdində fəaliyyət göstərən Ali Təcrübi Təhsil Mərkəzində təhsil almış, bir müddət burada elmi fəaliyyətlə məşğul olmuşdur (Əliyeva, 2010, s. 7).

Şahtaxtılının Fransa elmi mühiti ilə əlaqələri onun dünyagörüşünün formalaşmasına, Avropa elmi və maarifçilik ənənələrinin Azərbaycan ictimai fikrinə çatdırılmasına mühüm təsir göstərmişdir. O, Qərb təhsil sisteminin və elmi metodlarının Azərbaycan cəmiyyətində yayılmasına çalışan maarifçi ziyalılardan biri kimi tanınmışdır.

Beləliklə, XIX əsrdə Azərbaycan ilə Fransa arasında formalaşan mədəni, ədəbi və maarifçilik əlaqələri qarşılıqlı təsir xarakteri daşımış, hər iki xalqın intellektual mühitində mühüm iz buraxmışdır. Fransız ədəbiyyatçı və alimlərinin Azərbaycana marağı, eyni zamanda, Azərbaycan ziyalılarının Fransa maarifçilik ənənələrindən bəhrələnməsi iki ölkə arasında mədəni dialoqun və humanitar əməkdaşlığın tarixi əsaslarını formalaşdırmışdır.

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fransa ilə humanitar əməkdaşlıq.* Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan ilə Fransa arasında siyasi münasibətlərlə yanaşı, elm, təhsil və mədəniyyət sahələrində də müəyyən əməkdaşlıq əlaqələri formalaşmışdır. Gənc Azərbaycan dövlətinin Avropa ilə inteqrasiyaya və müasir təhsil modelinin mənimsənilməsinə xüsusi önəm verməsi Fransa ilə humanitar əlaqələrin genişlənməsinə şərait yaratmışdır. Bu dövrdə Fransa Avropa elm və mədəniyyət mərkəzlərindən biri hesab olunduğuna görə, Azərbaycan hökuməti tərəfindən yüksək ixtisaslı milli kadrların hazırlanması məqsədilə tələbələrin bu ölkəyə göndərilməsinə xüsusi diqqət yetirilmişdir. Təsadüfi deyildir ki, Cümhuriyyət hökumətinin xaricdə təhsil almaq üçün göndərdiyi 100 nəfər gəncdən 45-i Fransaya göndərilmişdi (Quliyeva, 2018). Bu fakt Fransa ali təhsil sisteminə və elmi mühitinə olan böyük etimadı əks etdirirdi. Fransaya göndərilən tələbələr sırasında A.Atamalıbəyov, A.Muradov, A.Vəzirov, B.Ağayev, B.Hacıyev, C.Rəhimov, Ə.Axundov, M.Mirqasımzadə, M.Vəzirov, İ.Əşrəfov, R.Topçubaşov, M.Vəkilov, Z.Daqirov, T.Aslanov, Z.Hüseynov və X.Hacıyev kimi gənclər yer alırdı. Onların əsas məqsədi Avropa təhsil sisteminin nailiyyətlərini mənimsəyərək gələcəkdə Azərbaycan dövlətinin inkişafına xidmət etmək idi. Paris Universiteti və digər nüfuzlu ali məktəblərdə təhsil alan bu gənclər sonradan Azərbaycan elmi və ictimai fikrinin formalaşmasında mühüm rol oynamışlar.

1920-ci ildə bolşevik işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Fransa Azərbaycan siyasi və mədəni mühacirətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Xüsusilə Paris şəhəri Azərbaycan mühacir ziyalılarının elmi, ədəbi və publisistik fəaliyyət göstərdiyi əsas mədəni mühit olmuşdur. Azərbaycan mühacir ədəbiyyatının görkəmli nümayəndələrindən biri, milyonçu Şəmsi Əsədullayevin nəvəsi olan Ümmülbanu Əsədullayeva məhz Parisdə yaşayıb-yaratmış və dünya ədəbiyyatında "Banin" adı ilə tanınmışdır (Georgeon, 1989, s. 78). Onun əsərlərində Azərbaycan xalqının tarixi, milli kimliyi və mühacirət həyatı bədii şəkildə əks etdirilmişdir. Bu əsərlər Fransa oxucularında Azərbaycan haqqında təsəvvürün formalaşmasına mühüm təsir göstərmişdir.

Fransada təhsil alan azərbaycanlı tələbələr və mühacir ziyalılar Azərbaycan mədəniyyətinin Avropada tanıdılması istiqamətində də fəal fəaliyyət göstərmişlər. Onların təşəbbüsü ilə Paris teatrlarında Azərbaycan müəlliflərinin əsərləri səhnələşdirilmiş və Fransa tamaşaçıları tərəfindən böyük maraqla qarşılanmışdır. Bu baxımdan Arşın mal alan operettasının 1925-ci ildə Parisdə fransız dilində tamaşaya qoyulması mühüm mədəni hadisə hesab olunur (Makhmudov, 1991). Operettanın fransız dilinə tərcüməsi Ceyhun Hacıbəyli tərəfindən həyata keçirilmişdir. Bu tamaşa Azərbaycan musiqi və teatr sənətinin Avropada tanıdılması baxımından böyük əhəmiyyət daşıyırdı və Fransa ictimaiyyətində Azərbaycan mədəniyyətinə marağın artmasına səbəb olmuşdur.

XX əsrin 20-ci illərində Parisdə "Azərbaycan" adlı jurnalın nəşr olunması da Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafında mühüm hadisələrdən biri idi. 1926-cı ilin oktyabr ayından nəşrə başlayan bu jurnal Azərbaycan mühacirlərinin ictimai-siyasi və mədəni fikirlərinin yayılmasında mühüm rol oynamışdır (Qasımov, 2017, s. 15; Ömərov, 2013; Rafiqoğlu, 2014). Jurnal vasitəsilə

Fransa ictimaiyyətinə Azərbaycanın tarixi, mədəniyyəti və siyasi problemləri haqqında məlumatlar çatdırılırdı.

*Sovet dövründə Azərbaycan–Fransa mədəni əlaqələri.* Sovet Sosialist Respublikaları İttifaqı dövründə isə Azərbaycan SSR ilə Fransa arasında elm, təhsil və mədəni əlaqələr əsasən mərkəzi sovet hakimiyyətinin nəzarəti və vasitəçiliyi ilə həyata keçirilmişdir. Bu münasibətlər daha çox sovet ideoloji maraqlarına xidmət etsə də, müəyyən humanitar və mədəni əlaqələrin qorunub saxlanmasına imkan yaratmışdır. Sovet hakimiyyətinin ilk illərində Fransa-Azərbaycan mədəni əlaqələrinin inkişafında fransız kommunist yazıçısı Henri Barbusse müəyyən rol oynamışdır. O, 1927-ci ildə Bakıya səfər etmiş və şəhərin sürətli inkişafı ilə bağlı təəssüratlarını özünün "Neft ölkəsində" adlı əsərində əks etdirmişdir. Yazıçı Bakı haqqında yüksək fikirlər söyləyərək sovet modernləşməsinin ən diqqətçəkən nümunələrindən biri kimi məhz bu şəhəri göstərmişdir (Həsənov, 2000, s. 742–743].

Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayaraq Fransa ilə elm, təhsil və mədəniyyət sahələrində formalaşan əlaqələr sonrakı tarixi mərhələlərdə də davam etmiş, xüsusilə mühacirət dövründə və sovet illərində müxtəlif formalarda öz inkişafını qoruyub saxlamışdır. Bu əlaqələr Azərbaycan mədəniyyətinin Avropada tanıdılması və iki xalq arasında humanitar münasibətlərin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşımışdır.

## Müzakirə və Nəticə

Azərbaycan ilə Fransa arasında mədəni, elmi və humanitar əlaqələr uzun tarixi inkişaf mərhələlərindən keçərək formalaşmış və müxtəlif dövrlərdə fərqli xarakter daşımışdır. Azərbaycanın Şərq və Qərb arasında yerləşən geosiyasi və mədəni mövqeyi iki xalq arasında qarşılıqlı münasibətlərin inkişafına əlverişli şərait yaratmışdır. Xüsusilə XIX əsrdə Fransa maarifçilik ideyalarının Azərbaycan ictimai fikrinə təsiri milli maarifçilik hərəkatının inkişafında mühüm rol oynamışdır. Mirzə Fətəli Axundov, İsmayıl bəy Qutqaşınlı, Əhməd bəy Ağaoğlu və Məhəmməd ağa Şahtaxtılı kimi görkəmli ziyalıların fəaliyyəti Azərbaycan-Fransa mədəni münasibətlərinin dərinləşməsinə əhəmiyyətli töhfə vermişdir.

Aleksandr Dümanın Qafqaza səfəri və onun Azərbaycan haqqında yazdığı qeydlər Fransa ictimaiyyətində Azərbaycan haqqında müsbət təsəvvürün formalaşmasına xidmət etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Fransa ilə təhsil və elm sahəsində qurulan əməkdaşlıq münasibətləri isə Avropa yönümlü milli inkişaf strategiyasının mühüm göstəricisi olmuşdur. Parisdə fəaliyyət göstərən Azərbaycan mühacir ziyalıları və mədəni təşkilatları Azərbaycan mədəniyyətinin Avropada tanıdılmasında mühüm rol oynamışlar.

Sovet dövründə Azərbaycan–Fransa münasibətləri ideoloji çərçivədə inkişaf etsə də, elm, təhsil və mədəniyyət sahələrində müəyyən əlaqələr qorunub saxlanılmışdır. Müasir dövrdə isə Azərbaycan–Fransa münasibətləri mədəni diplomatiya, humanitar əməkdaşlıq və sivilizasiyalararası dialoq prinsipləri əsasında inkişaf etməkdədir. Bütün bunlar göstərir ki, Azərbaycan–Fransa mədəni əlaqələri yalnız tarixi keçmişin mühüm hissəsi deyil, eyni zamanda, müasir beynəlxalq humanitar əməkdaşlıq sisteminin vacib istiqamətlərindən biridir.

## Ədəbiyyat

1. Axundova, J. (2016). *Müxtəlif ölkələrdə diaspor və ictimai-mədəni diplomatiya*. Elm və Təhsil Nəşriyyatı.
2. Alieva, S. (2011). Vsemirnoe priznanie "Arshin mal alan". YUNESKO otprazdnuet 100-letie znamenitoi azerbaidzhanskoi operetty. *Zerkalo, 29 aprelya*, 8.

3. Ehmir-Il'yasova, Eh.I. (2003). *Geopolitika vo vneshneehkonomicheskikh svyazyakh Azerbaidzhanskoi Respubliki*. Eh.I.Ehmir-Il'yasova.
4. Əliyeva, G. (2020, 19 may). *Azərbaycan-Fransa mədəni əlaqələrinin bariz nümunəsi*. URL: https://mehribanaliyeva.preslib.az/media-TYVw UEMP ug.html.
5. Əliyeva, Z. (2010). *Azərbaycan və fransız maarifçiliyi: qarşılıqlı əlaqələr*. Səda Nəşriyyatı.
6. Georgeon, F. (1989). Ahmed Agaoglu, un intellectuel turc admirateur des Lumières et de la Révolution française. *Revue du Monde Musulman et de la Méditerranée, 52–53*, 186–197
7. Hacıyev, İ. (2017). *Naxçıvanlı diplomatlar*. Əcəmi NPB.
8. Həsənov, Ə. (2000). *Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991–1996).* Elm Nəşriyyatı.
9. Qasımov, E.A. (2017). Azərbaycan – Fransa mədəni əlaqələri (2006–2008-ci illər). *Bakı Universitetinin Xəbərləri, 2*, 156–163.
10. Quliyeva, S.S. (2018). *Azərbaycan və Fransa Respublikaları arasında elm-təhsil sahəsində əməkdaşlıq (XX əsrin 90-cı illəri). Müsəlman Şərqində ilk parlamentli Respublika*. Elm Nəşriyyatı.
11. Makhmudov, Ya.M. (1991). *Vzaimootnosheniya gosudarstv Akkoyunlu i Sefevidov s evropeiskimi stranami (II polovina KhV – nach. KhVII vv.).* Izdatel'stvo Bakinskogo universiteta.
12. Ömərov, V. (2013). Azərbaycan–Fransa mədəni inteqrasiyası: ADR II Dünya müharibəsi illərində. *Səs*, 24 avqust, s.15.
13. Raqifoğlu, R. (2014). *Azərbaycan – Fransa əməkdaşlığı: Tarix və müasirlik*. URL: http://525.az/site/?name=xeber& news_id=22596